# Əsas məqsədimiz multimədəniyyətli cəmiyyətlərin inkişafına töhfə verməkdir

**Nazirlər Kabinetinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycanın sivilizasiyalararası dialoqun genişlənməsinə töhfələrindən bəhs edən dövlətimizin başçısı İlham Əliyev bildirmişdir ki, başqa ölkələr də bizim təcrübəmizdən istifadə edərək bu reallığı qəbul etmək imkanındadırlar ki, müxtəlif dinlərin, millətlərin nümayəndələri bir yerdə, dostluq şəraitində yaşaya bilərlər**



**Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, əsrlər boyu Azərbaycan sivilizasiyaların bir araya gəldiyi məkan olub. Azərbaycan Avropa ilə Asiya arasında təbii coğrafi körpüdür. Ölkəmizdə multikulturalizm ənənələri dərin köklərə malikdir. Siyasi quruluşdan asılı olmayaraq Azərbaycanda müxtəlif millətlərin, dinlərin və etnik azlıqların nümayəndələri hər zaman sülh və əmin-amanlıq şəraitində yaşamışlar. Ölkəmiz müstəqillik əldə etdikdən sonra məhz bu səbəbdən dünya multikulturalizm mərkəzlərindən birinə çevrilmişdir.**

Cənab İlham Əliyev daim çıxışlarında Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan roluna diqqəti yönəldərək bu inamı ifadə edir ki, qarşıdakı illərdə ölkəmizin siyasi və iqtisadi potensialının daha da gücləndirilməsi, beynəlxalq nüfuzunun artırılması, beynəlxalq təşkilatlarla, ayrı-ayrı ölkələrlə tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində səylər davam etdiriləcək, ən əsası Azərbaycan sivilizasiyalararası dialoqun genişləndirilməsinə töhfələrini daha da artıracaq.

Məlum olduğu kimi, dövlətimizin başçısı İlham Əliyevin 15 may 2014-cü il tarixli Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Təbii ki, belə bir addımın atılması ölkəmizin malik olduğu imkanların, qazandığı imicin, uğurların, tutduğu mövqeyin təqdimatında əhəmiyyətli rol oynayır. Multikulturalizm Mərkəzinin yaradılması haqqında Fərmanda da bu reallıq öz əksini tapmışdır ki, sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Ölkə Prezidenti bu sənədi multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq imzalamışdır. Mərkəzin keçdiyi qısa bir yola nəzər saldıqda Azərbaycanın multikultural nailiyyətlərinin beynəlxalq müstəviyə çıxarılmasını təmin etmək, mütəxəssislərin fəaliyyətini bu istiqamətə yönəltmək üçün biri-birindən əhəmiyyətli layihələr həyata keçirildiyini görərik. Azərbaycan multikulturalizminin tarixi qaynaqları və müasir mərhələdə onun dövlət siyasəti səviyyəsinə qaldırılması mövzusunda aparılan diskussiyalarda ölkəmizin bu istiqamətdə verdiyi töhfələr bir daha təhlil olunur, müxtəlif ölkələrin mətbuatında yer almaqla təbliğinə öz müsbət təsirini göstərir. Təbii ki, məqsəd müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın töhfələri fonunda əlaqələrin daha da inkişafına nail olmaqdır. Ölkəmiz uğurlu addımları ilə Asiya ilə Avropa arasındakı təbii coğrafi körpünü daha da möhkəmləndirir.

Azərbaycanın müxtəlif sivilizasiyalar və dinlər arasında körpü rolu beynəlxalq səviyyəli tədbirlər üçün ideal məkan seçilməsində də mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, cari ilin mart ayında Bakıda IV Qlobal Bakı Forumu keçiriləcək. Artıq ənənəvi olaraq keçirilən forumda bir sıra ölkələrin dövlət və hökumət başçıları, tanınmış nüfuzlu siyasi xadimləri iştirak edirlər. "Çoxqütblü dünyaya doğru" mövzusuna həsr olunan IV Qlobal Bakı Forumunda müxtəlif ölkələrdən 300-ə yaxın nümayəndənin iştirakı gözlənilir. Təbii ki, keçirilən hər bir forum gündəmə gətirilən mövzunun aktuallığı, eyni zamanda ayrı-ayrı istiqamətlərdə hər bir ölkənin malik olduğu imkanların təqdimatı və səylərin birləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bakının dünyanı düşündürən məsələlərin müzakirə edildiyi əhəmiyyətli məkana çevrilməsi təbii ki, dövlətimizin uğurlu daxili və xarici siyasətinin nəticəsidir. Qeyd etdiyimiz kimi, hər bir tədbir iştirakçı ölkələrin potensial imkanlarının təqdimatında mühüm rol oynayır. Əgər bu gün dünya inkişafın Azərbaycan modelinin mövcudluğunu təsdiqləyirsə və öyrənilməsinin vacibliyini bildirirsə, bu, ölkəmizin uğuru, beynəlxalq münasibətlər sistemində yeri və rolunun, mövqeyinin möhkəmlənməsinin göstəricisidir.

Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı İlham Əliyevin diqqət göstərdiyi əsas məsələlərdən biri də məhz Azərbaycanın sivilizasiyalararası dialoqun genişləndirilməsinə verdiyi töhfələr olmuşdur. Bu il ölkəmizin mötəbər beynəlxalq tədbirə - Sivilizasiyalar Alyansının Qlobal Forumuna ev sahibliyi edəcəyini önə çəkən cənab İlham Əliyev bildirmişdir: "Bu, dünya miqyasında çox böyük beynəlxalq tədbirdir. BMT-nin fəal iştirakı, dəstəyi ilə keçirilən tədbirlərdir. Mən çox şadam ki, növbəti Qlobal Forum Azərbaycanda keçiriləcək. Bu, Azərbaycanda həmin istiqamətdə görülən işlərə BMT tərəfindən verilən böyük qiymətdir. Bilirsiniz ki, Bakıda ənənəvi Humanitar forumlar keçirilir. Mədəniyyətlərarası Dialoq forumları bir neçə dəfə keçirilmişdir. Sivilizasiyalar Alyansının Qlobal Forumunun Bakıda keçirilməsi doğrudan da həm bizə verilən böyük qiymətdir, həm də ki, bizim üçün böyük şərəfdir." Təbii ki, hansısa tədbir üçün məkan seçiləndə ilk növbədə həmin ölkənin malik olduğu imkanlara diqqət yetirilir. Azərbaycanın regionda sabitləşdirici rol oynaması hər zaman təqdir olunur. Dövlətimizin başçısı İlham Əliyev Nazirlər Kabinetinin iclasında da bu məqamı xüsusi qeyd etmişdir: "Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsidir. Eyni zamanda, bizi Avropa ölkələri ilə dərin əlaqələr bağlayır. Biz siyasi, iqtisadi, enerji sahələrində, başqa sahələrdə uğurla əməkdaşlıq edirik. Biz həmişə çalışırıq ki, dinlərarası, sivilizasiyalararası dialoq daha da güclənsin. Biz bu işə öz töhfəmizi vermişik və öz nümunəmizi ortaya qoymuşuq. Ona görə bu gün dünyada yaşanan sivilizasiyalararası anlaşılmazlıq bizi narahat edir. Bu, çox təhlükəli meyillərdir. Azərbaycan öz tərəfindən çalışacaq ki, bu meyillərin yumşaldılması və müsbət məcraya yönəldilməsi üçün öz səylərini göstərsin." Cənab İlham Əliyev bu reallığa da diqqəti çatdırmışdır: "Azərbaycan sivilizasiyalararası dialoqun genişlənməsi üçün əlindən gələni edir. Əfsuslar olsun ki, getdikcə bu iş daha da çətinləşir... Biz nə qədər çalışsaq da əfsuslar olsun ki, sivilizasiyalararası dialoqu daha az görürük. Biz daha çox sivilizasiyalararası, dinlərarası anlaşılmazlıq, inamsızlıq, toqquşmalar görürük. Ancaq biz bu yoldan dönməyəcəyik. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir. Biz bu sərvəti qoruyuruq. Biz bunu özümüz üçün edirik. Əlbəttə, çox istərdik ki, başqa ölkələr də bizim təcrübəmizdən istifadə etsinlər. Başa düşsünlər ki, dinlərarası münaqişə fəlakətə gətirib çıxarır. Başa düşsünlər ki, müxtəlif dinlərin, millətlərin nümayəndələri bir yerdə yaşaya bilərlər, normal qardaşlıq, dostluq şəraitində yaşaya bilərlər, necə ki, Azərbaycanda yaşayırlar. Əlbəttə, biz bundan sonra da çalışacağıq ki, ölkə daxilində bütün bu məsələlər sağlam zəmində öz həllini tapsın, - necə ki, bu, bu gün belədir, - regionda və dünyada dinlərarası, sivilizasiyalararası dialoq daha da dərinləşsin."

Məlum olduğu kimi, ölkəmizin hərtərəfli inkişafını daha da sürətləndirmək üçün dövlətimizin başçısı cənab İlham Əliyevin Sərəncamı ilə hər il konkret bir sahənin adı ilə bağlanır. Cənab İlham Əliyevin Sərəncamı ilə cari il ölkəmizdə "Multikulturalizm ili" elan edilib. Sərəncamda da bildirilir ki, tarixi İpək Yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun cari ildə Bakıda keçirilməsi barədə qərar qəbul edilməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi bir daha bu həqiqəti ortaya qoyur ki, Azərbaycan nümunəsi multikulturalizmin yaşadığını, ölkəmizin bu sahəyə davamlı töhfələr verməkdə maraqlı olduğunu nümayiş etdirir.

Bu fikir hər zaman önə çəkilir ki, dinc yanaşı yaşamağın təmin edilməsinə yönələn fəaliyyətin mühüm tərkib hissəsi və şərtlərindən biri din və ümumbəşəri dəyərlər sahəsində mədəniyyətlərarası dialoqun zəruriliyidir. Bu dəyərlərin öyrənilməsi və kəsişmə nöqtələrinin açıqlanması ümumi mədəniyyətlərarası dəyərlərin aşkar edilməsində mühüm rol oynaya bilər. Dövlətimizin başçısı İlham Əliyev bildirir: "Sivilizasiyaları, dünya dinlərini birləşdirmək, əməkdaşlığı dərinləşdirmək üçün hesab edirəm ki, bizim ölkə kifayət qədər böyük səylər göstərir. Ən önəmlisi ondan ibarətdir ki, bu səylər öz nəticəsini verməkdədir. Çünki əgər belə olmasaydı, Azərbaycanın bu sahədəki təcrübəsi maraq doğurmazdı."

O da məlumdur ki, ötən əsrin sonlarında sovetlərin dağılması ilə yaranan, dünya birliyi üçün yeni proses olsa da, çox sürətlə yayılan qlobal dəyişikliklər iqtisadi, siyasi, sosial, demoqrafik sahələrdə olduğu kimi, dini dözümlülük ənənələrinin qorunması üçün də əsl sınağa çevrildi. Bu baxımdan tolerantlıq və dözümlülük ənənələri ilə tarixən zəngin olan Azərbaycan bir çox millətlərin və dini konfessiyaların yanaşı yaşamasını təmin edən ölkə kimi nümunə göstərildi. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə xalqlar və dinlərarası münasibətlər, dialoqlar müasir dövrün tələblərinə uyğunlaşdırıldı. Ölkəmizin sülhsevərliyi, birgəyaşayış qaydalarına hörməti Azərbaycan xalqına məxsus humanist və xeyirxahlıq kimi yüksək qiymətləndirilir.

Ölkəmizdə yaranan demokratik şəraiti yüksək qiymətləndirən xarici qonaqlar etiraf edirlər ki, dünyada çox az dövlət tapılar ki, Azərbaycanda yaranan tolerantlıq, dini dözümlülüyün təmin olunması üçün bu qədər səylər göstərilsin. İllərin təcrübəsi göstərir ki, İslam Konfransı Təşkilatının və Avropa Şurasının üzvü olan Azərbaycan milli mənəvi dəyərlərin dünya mədəniyyətinin inciləri ilə vəhdət halında qorunub saxlanılmasına, təbliğinə, Avropa və Asiya, xristian və müsəlman dünyası ilə əlaqələrin güclənməsinə ən böyük töhfə verən ölkədir. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə bütün xalqları birləşdirir. Eyni zamanda, hər bir ölkənin öz qaydaları, öz ənənələri vardır. Hər bir insan - həm ölkənin vətəndaşı, həm ölkəyə gələn qonaq, əlbəttə ki, o qaydalara, o ənənələrə hörmətlə yanaşmalıdır. Bu əminlik də ifadə edilir ki, bu amillərin sintezi nəticəsində bu gün müxtəlif dairələrdə multikulturalizmlə bağlı səslənən bədbin fikirlər aradan götürüləcək. Cənab İlham Əliyev multikulturalizmin ölkəmizdə dövlət siyasəti olduğunu önə çəkərək bildirir: "Artıq tarixi keçmişimiz də bunu diktə edir. Eyni zamanda, multikulturalizm Azərbaycanda həyat tərzidir. Biz gündəlik həyatımızda bu prinsiplər əsasında fəaliyyət göstəririk. Bu prinsiplər cəmiyyətin mütləq əksəriyyəti tərəfindən dəstəklənir, müdafiə edilir. XXI əsrdə multikulturalizmə alternativ yoxdur." Əsas amalımızın multimədəniyyətli cəmiyyətlərin inkişafına töhfə vermək olduğunu diqqətə çatdıran dövlətimizin başçısı bildirir ki, Azərbaycanda bu istiqamətdə toplanan təcrübə müsbət təcrübədir.

**Yeganə Əliyeva, "İki sahil"**